

# İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin 2021-ci il üzrə fəaliyyətinə dair

# HESABAT

# Mündəricat


1. Giriş ... 3
2. Normativ hüquqi aktlar ... 4
3. Tibbi statistik göstəricilər ... 4
4. Maliyyə ayırmaları ... 9
5. İctimaiyyətlə əlaqələr ... 10
    - 5.1. Agentliyin və tabeli qurumların xarici kommunikasiya prosesini tənzimləyən sənədlər və tədbirlər ... 10
    - 5.2. Media ilə əməkdaşlıq ... 11
    - 5.3. İcbari tibbi sığorta sistemi haqqında maarifləndirmə tədbirləri ... 12
    - 5.4. Agentliyin saytının və sosial şəbəkələrdəki səhifələrinin əsas fəaliyyət göstəriciləri ... 13
6. Vətəndaş müraciətlərinə baxılması ... 15
7. Beynəlxalq əməkdaşlıq ... 17
    - 7.1. Anlaşma Memorandumları ... 17
    - 7.2. Beynəlxalq layihələr və tədbirlər ilə əlaqədar fəaliyyət ... 17
    - 7.3. İşgüzar səfərlər ... 19
8. İnsan resursları üzrə görülmüş işlər ... 20
9. Əlillik məsələləri və regionlarla iş sahəsində görülmüş işlər ... 21
    - 9.1. Əlillik məsələləri ... 21
    - 9.2. Regionlarla iş ... 22
10. İnformasiya texnologiyaları və qeydiyyat sistemi üzrə görülmüş işlər ... 22
11. Koronavirus pandemiyası ilə mübarizə ... 23
    - 11.1. Tibbi statistik göstəricilər ... 23
    - 11.2. Vaksinasiya işinin təşkili ... 24
    - 11.3. Texniki dəstək ... 24
    - 11.4. İnformasiya texnologiyaları üzrə tədbirlər ... 25
    - 11.5. Maarifləndirmə üzrə tədbirlər ... 25
    - 11.6. Beynəlxalq əməkdaşlıq ... 26

## 1. Giriş

Azərbaycan Respublikası Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 765 nömrəli Fərmanına əsasən fəaliyyətə başlamış, 2016-cı il 24 noyabr tarixli 1125 nömrəli Fərmanı ilə onun əsasında "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" (bundan sonra – Agentlik) publik hüquqi şəxsi yaradılmışdır.

Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 29 noyabr tarixli 1127 nömrəli və 2018-ci il 16 fevral tarixli 1830 nömrəli Fərmanlarına əsasən 2017-ci ildən 2019-cu ilədək Agentlik tərəfindən icbari tibbi sığorta (bundan sonra – İTS) pilot layihə şəklində Mingəçevir, Yevlax və Ağdaş rayonlarında həyata keçirilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 31 mart tarixli 979 nömrəli Fərmanına və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 10 aprel tarixli 136 nömrəli Qərarına əsasən 2020-ci il ilin yanvar ayından Agentlik tərəfindən İTS Mingəçevir şəhərində, Qusar, Xaçmaz, Quba, Şabran, Siyəzən, Xızı, Qobustan, İsmayıllı, Ağsu, Şamaxı, Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, Göyçay, Ucar, Zərdab, Kürdəmir, Yevlax və Ağdaş rayonlarında həyata keçirilmişdir. 2021-ci ilin yanvar ayından etibarən Gəncə, Naftalan və Şirvan şəhərlərində, Qazax, Ağstafa, Tovuz, Şəmkir, Gədəbəy, Daşkəsən, Samux, Göygöl, Goranboy, Xocalı, Beyləqan, Xocavənd, Ağcabədi, Laçın, Bərdə, Füzuli, Ağdam, Tərtər, Kəlbəcər, Astara, Lənkəran, Lerik, Yardımlı, Masallı, Cəlilabad, Neftçala, Biləsuvar, Cəbrayıl, Salyan, İmişli, Saatlı, Sabirabad və Hacıqabul rayonlarında, 2021-ci ilin aprel ayından etibarən isə Bakı və Sumqayıt şəhərlərində, Abşeron rayonunda həyata keçirilmişdir. Həmin tarixdən etibarən İTS bütün ölkə əhalisini əhatə etmişdir.

Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 20 dekabr tarixli 418 nömrəli Fərmanına əsasən Agentlik tərəfindən "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" publik hüquqi şəxs (bundan sonra – TƏBİB) yaradılmışdır və Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin tabeliyindəki dövlət səhiyyə sisteminə daxil olan tibb müəssisələri (müəyyən istisnalarla) 2020-ci ilin yanvar ayından TƏBİB-in tabeliyinə verilmişdir.

Hazırkı təqdim edilən hesabat Agentliyin 2021-ci il üzrə fəaliyyəti haqqındadır.

## 2. Normativ hüquqi aktlar

2021-ci ildə Agentliyin fəaliyyət istiqamətlərinə aid edilən təşəbbüs və uyğunlaşdırılma qaydasına 12 Qanunu, 14 Fərman, 2 Azərbaycan Respublikası Prezidentinin Sərəncamı və 28 Nazirlər Kabinetinin Qərarı qəbul edilmişdir:

“Tibbi sığorta haqqında” Azərbaycan Respublikası Qanununun 16-4.4-cü maddəsinə əsasən Qanunun 15-28.3-cü və 15-28.4-cü maddələrində bəhs edən sığortaolunan ilkin tibbi-sanitariya yardımına müraciət etmədən birbaşa ambulator-poliklinik, laborator, funksional-diaqnostik tibbi xidmətlərdən istifadə etdikdə o cümlədən icbari tibbi sığorta çərçivəsində tibbi xidmətlərdən istifadə etmək məqsədilə yönləndirildiyi tibbi ərazi bölməsindən kənar yerləşən dövlət tibb müəssisəsinə müraciət etdikdə müştərək maliyyələşmə məbləğinin ödəməsinin 2021-ci il yanvarın 1-dən qüvvəyə minməsi nəzərdə tutulmuşdur. Həmin Qanuna 2021-ci il 27 may tarixli 332-VIQD Qanunla edilmiş dəyişikliyə əsasən həmin müddət 1 il uzadılaraq bu (15-28.3-cü və 15-28.4-cü) maddələrin tətbiq edilməsi 2022-ci il yanvarın 1-dən nəzərdə tutulmuşdur.

Eyni zamanda, “Tibbi sığorta haqqında” Azərbaycan Respublikası Qanununun 15-2.2.2-ci maddəsinə 2021-ci il 9 iyul 360-VIQD nömrəli Qanunla edilmiş dəyişikliyə əsasən sığortalılar kateqoriyalarına vergi ödəyicisi kimi vergi uçotuna alınmış fərdi sahibkarlarla, xüsusi notariuslarla, vəkillər kollegiyasının üzvləri ilə yanaşı mediatorlar da əlavə edilmişdir.

Bundan başqa, “Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 164.1.51-ci maddəsinə görə Tibbi sığorta haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq icbari tibbi sığorta fondunun vəsaiti hesabına göstərilən tibbi xidmətlər əlavə dəyər vergisindən 2020-ci il yanvarın 1-dən etibarən 2 il müddətinə azad edilmişdir. Azərbaycan Respublikasının 2021-ci il 30 dekabr tarixli 472-VIQD nömrəli Qanunla edilmiş dəyişikliyə görə icbari tibbi sığorta fondunun vəsaiti hesabına göstərilən tibbi xidmətlər daha 1 il müddətinə uzadılmaqla 3 il müddətinə əlavə dəyər vergisindən azad olmuşdur.

## 3. Tibbi statistik göstəricilər

İTS-nin tətbiq olunduğu tibb müəssisələri üzrə 2021-ci il ərzində 25%-i uşaq (0-17 yaş) olmaqla 4 053 636 vətəndaş tibbi xidmətlərdən faydalanmışdır. 2021-ci il ərzində ölkə üzrə TƏBİB-in tabeliyində olan tibb müəssisələrində bir xəstənin çarpayıda keçirdiyi günlərin orta sayı 6,2 gün təşkil etmişdir.

Tibbi statistik göstəricilərdə baş vermiş dəyişikliklərə dair ətraflı məlumat aşağıdakı cədvəllərdə göstərilmişdir:

İTS-nin tətbiq edildiyi inzibati ərazilər üzrə tibbi statistik məlumatlar, 2021-ci il

| № | Göstəricilər | Cəmi |
|---|---|---|
| 1 | Əhalinin sayı | 10.156.366* |
| 2 | Həkimlərin sayı | 16.536 |
| 3 | Orta tibb işçilərinin sayı | 38.469 |
| 4 | Həkimə gəlişlərin sayı, profilaktiki gəlişlər daxil olmaqla | 21.694.189 |
| 5 | Stasionar qəbul | 413.284 |
| | Evə yazılan xəstələrin sayı | 398.806 |
| | Evə yazılan xəstələr tərəfindən keçirilən çarpayı günlər sayı | 2.481.972 |
| | Evə yazılan xəstələrin çarpayıda keçirdiyi günlərin orta | 6,2 |
| 6 | Cərrahi əməliyyatların sayı | 127.539 |
| 7 | Çarpayıların sayı | 20.722 |
| 8 | Çarpayıdan istifadə olunma əmsalı | 35% |

**2022-ci il yanvar ayının 1-i vəziyyətinə ölkə üzrə əhalinin sayı haqqında məlumat*

***Tibb müəssisələri üzrə Hemodializ şöbəsinin tibbi statistik məlumatları hesablamalara daxil deyil*

İTS-nin tətbiq edildiyi inzibati ərazilər üzrə hemodializə dair statistik məlumatlar, 2021-ci il

| № | Göstəricilər | Cəmi |
|---|---|---|
| 1 | Dializ aparatlarının sayı | 685 |
| 2 | Keçirilmiş hemodializlərin sayı | 439 493 |

### İTS-nin tətbiq edildiyi inzibati ərazilərdəki TƏBİB-in tabeliyinə verilmiş tibb müəssisələrinə müraciət edənlərin əsas xəstəlik sinifləri üzrə bölgüsü, 2021-ci il

Əsas xəstəlik sinifləri üzrə statistik göstəricilərin təhlili göstərir ki, 2021-ci ildə İTS-nin tətbiq edildiyi inzibati ərazilərdəki TƏBİB-in tabeliyinə verilmiş tibb müəssisələrində xəstəliklər arasında əsas yeri əhalinin sağlamlıq vəziyyətinə təsir edən amillər ilə bağlı müraciətlər tutmuşdur. Bununla yanaşı, əhalinin əsas xəstəliklərini qan dövranı, endokrin və tənəffüs sistemi xəstəlikləri təşkil etmişdir. Buna dair məlumat aşağıdakı cədvəldə əks olunmuşdur:

| Xəstəlik sinifləri | Cəmi |
|---|---|
| Əhalinin sağlamlıq vəziyyətinə təsir edən amillər və səhiyyə müəssisəsinə müraciət | 2.156.482 |
| Qan dövranı sistemi xəstəlikləri | 862.842 |
| Endokrin sistemin xəstəlikləri, maddələr mübadiləsi və qidalanma pozuntuları | 703.971 |
| Tənəffüs sistemi xəstəlikləri | 662.896 |
| Həzm sisteminin xəstəlikləri | 513.885 |
| Sidik-cinsiyyət sisteminin xəstəlikləri | 498.534 |
| Digər müraciətlər | 4.949.679 |

### İTS-nin tətbiq edildiyi inzibati ərazilərdəki TƏBİB-in tabeliyinə verilmiş tibb müəssisələrində keçirilən cərrahi əməliyyatlar, 2021-ci il

İTS-nin tətbiqindən sonra tibb müəssisələrinin cərrahiyyə fəaliyyətində artım müşahidə olunmuşdur. Belə ki, 2020-ci il ilə müqayisədə 2021-ci ildə stasionarda olan cərrahi əməliyyatlar 10% artmışdır. Bakı tibbi ərazi bölməsi (bundan sonra – TƏB) üzrə cərrahi əməliyyatların sayı TƏB-lər üzrə ümumi göstəricilərin 37%-ni, Bərdə-Yevlax və Şəki-Zaqatala TƏB-ləri isə 11%-ni təşkil etmişdir. 2021-ci ildə İTS-nin tətbiq edildiyi inzibati ərazilərdəki TƏBİB-in tabeliyinə verilmiş tibb müəssisələrində əsas cərrahi əməliyyatları mamalıq prosedurаları, qadın cinsiyyət üzvləri üzərində aparılan əməliyyatlar və həzm sistemində aparılan əməliyyatlar təşkil etmişdir. Buna dair məlumat aşağıdakı cədvəl və qrafikdə əks olunmuşdur:

| Əməliyyatlar | Cəmi |
|---|---|
| Mamalıq prosedurаları | 32.106 |
| Qadın cinsiyyət üzvləri üzərində aparılan əməliyyatlar | 25.836 |
| Həzm sistemində aparılan əməliyyatlar | 22.967 |
| Kişi cinsiyyət üzvlərində aparılan əməliyyatlar | 16.012 |
| Prosedurlar və müdaxilələr, başqa yerdə təsnif edilməyən | 7.054 |
| Digər əməliyyatlar | 23.564 |




## İTS-nin tətbiq edildiyi inzibati ərazilərdəki TƏBİB-in tabeliyinə verilmiş tibb müəssisələrində təcili və təxirəsalınmaz tibbi yardım gedişlərinin sayı, 2021-ci il

İTS-nin tətbiqi nəticəsində vətəndaşların tibbi xidmətlərə əlçatanlığının artması təcili və təxirəsalınmaz tibbi yardım çağırışlarının ümumi sayında da öz əksini tapmışdır. Belə ki, 2021-ci ildə İTS-nin tətbiq edildiyi inzibati ərazilərdəki TƏBİB-in tabeliyinə verilmiş tibb müəssisələrində 1.500.567 təcili və təxirəsalınmaz tibbi yardım çağırışı olmuşdur. Bakı TƏB üzrə çağırışların sayı digər aidiyyəti TƏB-lər üzrə ümumi göstəricilərin 47%-ni təşkil etmişdir. Buna dair məlumat aşağıdakı cədvəl və qrafikdə əks olunmuşdur:

| Tibbi ərazi bölməsi (Ən yuxarı 5) | Cəmi |
|---|---|
| Bakı TƏB | 707.081 |
| Sumqayıt TƏB | 156.218 |
| Gəncə TƏB | 134.440 |
| Bərdə-Yevlax TƏB | 87.925 |
| İmişli-Sabirabad TƏB | 61.390 |




## Özəl tibb müəssisələrinə verilmiş göndərişlər, 2021-ci il

TƏBİB-in tabeliyinə verilmiş dövlət tibb müəssisələrində göstərilməsi mümkün olmayan, habelə xüsusi tibbi təchizat və təminat tələb edən cərrahi əməliyyat və ixtisaslaşdırılmış tibbi xidmətlərlə bağlı özəl tibb müəssisələrinə 35912 sayda göndəriş verilmişdir. Göndərişlərin 35,4%-i invaziv radiologiya, 23,3%-i radiologiya, 13,7%-i oftalmologiya, 9,1%i digər sahələr üzrə, 7,2%-i urologiya, 5,4%-i ürək-damar cərrahiyyəsi, 3,8%-i neyrocərrahiyyə, 1,3%-i travmatologiya, 0,6%-i kardiologiya və 0,1%-i ginekologiya üzrə verilib. Vətəndaşlara verilmiş göndərişlərin aid olduqları xəstəlik sinifləri üzrə bölgüsü aşağıdakı diaqramda əks olunmuşdur:




## 4. Maliyyə ayırmaları

Ümumilikdə, 2021-ci ildə icbari tibbi sığortanın tətbiqi ilə bağlı xərclərin maliyyələşdirilməsinə 843 883,22 min manat məbləğində vəsait sərf edilmişdir ki, bu vəsaitin 804 281,63 min manatı icbari tibbi sığortanın tətbiq edildiyi ərazilərdə tibb müəssisələri üzrə xərclərin, 39 601,59 min manatı TƏBİB-in tabeliyinə verilmiş tibb müəssisələrində göstərilməsi mümkün olmayan ixtisaslaşdırılmış tibbi xidmətlərin özəl və təsərrüfat hesablı dövlət tibb müəssisələrində göstərilməsi üzrə sığorta ödənişlərinin payına düşür.

**2021-ci ildə səhiyyə xərclərinin maliyyələşdirilməsinə sərf olunan vəsait min manat**

| Xərc istiqamətləri | 2021-ci il |
|---|---|
| İcbari tibbi sığortanın tətbiq edildiyi ərazilərdə tibb müəssisələri üzrə xərclər | **804,281.63** |
| TƏBİB-in tabeliyinə verilmiş tibb müəssisələrində göstərilməsi mümkün olmayan ixtisaslaşdırılmış tibbi xidmətlərin özəl və təsərrüfat hesablı dövlət tibb müəssisələrində göstərilməsi üzrə sığorta ödənişləri | **39,601.59** |
| **Cəmi** | **843,883.22** |

# 5. İctimaiyyətlə əlaqələr

## 5.1 Agentliyin və tabeli qurumların xarici kommunikasiya prosesini tənzimləyən sənədlər və tədbirlər

- Agentliyin İdarə Heyətinin 23 iyun 2021-ci il tarixli 11 nömrəli Qərarına əsasən "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin Kommunikasiya Strategiyası - 2021-2023" təsdiq olunub. Hazırlanan sənəddə qurumun prioritet istiqamətləri, smart məqsədləri, icbari tibbi sığorta haqqında əhalini məlumatlandırmaq və qurumun işgüzar nüfuzunu artırmaq istiqamətində görüləcək tədbirlər barədə məlumat əks olunur.

- Agentlik tərəfindən tibb müəssisələrində ictimaiyyətlə əlaqələr üzrə vəzifə təsis edilib və 2021-ci ilin iyul ayından etibarən sözügedən sahədə işə qəbul ilə bağlı Bakı şəhəri üzrə 15, digər şəhər və rayonlar üzrə isə 30 olmaqla, ümumilikdə 45 müsahibə keçirilib. Müsahibələr nəticəsində Bakı şəhəri üzrə 11, digər şəhər və rayonlar üzrə isə 14 nəfər işə qəbul edilib. Tibb müəssisələrində aparılan struktur dəyişiklikləri ilə bağlı islahatların məqsədi dövlət tibb müəssisələrinin fəaliyyətinin effektiv təşkili və idarəolunmasını təmin etməkdir. Xəstəxanalarda ictimaiyyətlə əlaqələr üzrə mütəxəssislərin fəaliyyətə başlaması eyni zamanda tibb müəssisələri ilə media arasında kommunikasiyanın gücləndirilməsinə xidmət edir.

- Tibb müəssisələrinin KİV-lə kommunikasiya və ictimaiyyətlə əlaqələrin effektiv qurulması və təkmilləşdirilməsi üçün ictimaiyyətlə əlaqələr üzrə mütəxəssislərin bilik və bacarıqlarının artırılması məqsədi ilə TƏBİB-in nəzdindəki dövlət tibb müəssisələrinin ictimaiyyətlə əlaqələr üzrə mütəxəssisləri üçün 22-23 noyabr 2021-ci il tarixlərində təlim keçirilib. Tədbirdə Bakı şəhəri və bölgələrdə fəaliyyət göstərən 65 tibb müəssisəsinin 74-dən çox əməkdaşı iştirak edib. Onlara ictimai məlumatlandırma, media sorğularının cavablandırılması, ictimaiyyətlə əlaqələrin idarə edilməsi və hesabatlılıq, KİV və informasiya sahəsində qanunvericilik, COVID -19 pandemiyası dövründə media ilə əməkdaşlıq və s. mövzular tədris edilib.

## 5.2 Media ilə əməkdaşlıq

Agentliyə KİV-dən daxil olmuş 716 sayda informasiya sorğusu, müvafiq qaydada cavablandırılmışdır.




2021-ci ildə icbari tibbi sığorta mövzusunda KİV-də yayımlanmış xəbərlərin sayında 2020-ci il ilə müqayisədə 14.7% artım qeydə alınmışdır. Belə ki, 2020-ci ildə sözügedən göstərici 11691 təşkil etdiyi halda, 2021-ci ildə 13409 təşkil etmişdir. Göstəricilər aşağıdakı diaqramda təqdim olunur:




İTS mövzusunu mediada işıqlandırmaq məqsədilə hazırlanmış və KİV-də yayımlanmış məlumatların (press-reliz, xəbər, açıqlama, elan) sayında 2020-ci il ilə müqayisdə 93,8% artım qeydə alınmışdır. Göstəricilər aşağıdakı diaqramda təqdim olunur:




- Agentliyin təşəbbüsü ilə əhalinin İTS mövzusunda məlumatlılıq səviyyəsinin artırılması məqsədilə “Medical Media TV” ixtisaslaşmış onlayn tibbi informasiya resursu ilə əməkdaşlıq nəticəsində “Sığortalı həyat” verilişi yayımlanıb. Veriliş həmçinin, “Space TV”-nin efirində yayımlanıb. Ötən il izləyiciləri maraqlandıran mövzularda 12 veriliş hazırlanıb. “Real TV” televiziyası ilə əməkdaşlıq nəticəsində “Tibbi sığorta saatı” verilişi yayımlanıb. Ötən ildə icbari tibbi sığorta mövzusu ilə bağlı 5 veriliş hazırlanıb. Videoyazılar Agentliyin “YouTube” kanalında yerləşdirilib.

- “Ailə həkimi” redaksiyası ilə əməkdaşlıq çərçivəsində 5 müxtəlif mövzuda məqalə nəşr olunub.

- Həmçinin ötən ilin sonu kütləvi informasiya vasitələri (bundan sonra - KİV) və qeyri-hökumət təşkilatlarının nümayəndələri üçün “Əhalinin icbari tibbi sığorta haqqında maarifləndirilməsində medianın və vətəndaş cəmiyyətinin rolu” mövzusunda təlim keçirilib. Təlimin keçirilməsində əsas məqsəd Agentliyin fəaliyyətini və ümumilikdə icbari tibbi sığorta mövzusunu işıqlandıran media mənsublarına bu sahəni daha dolğun əks etdirmələri üçün ətraflı məlumat vermək, onlarla əməkdaşlıq imkanlarını genişləndirmək, habelə qeyri-hökumət təşkilatları ilə tərəfdaşlığı gücləndirməkdir.

## 5.3 İcbari tibbi sığorta sistemi haqqında maarifləndirmə tədbirləri

Koronavirus pandemiyası səbəbindən Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən kütləvi tədbirlərin təxirə salınması qərarı ilə əlaqədar olaraq 2021-ci ildə də Agentlik tərəfindən maarifləndirmə tədbirlərinin əyani olaraq keçirilməsi təxirə salınmışdır. 2021-ci il ərzində **11 dövlət qurumu, beynəlxalq təşkilat və təhsil müəssisəsinin** nümayəndələrini İTS sistemi, Xidmətlər Zərfi, sistem çərçivəsində tibb müəssisələrinə müraciət qaydası, ailə həkimi və s. barədə məlumatlandırmaq üçün **13 onlayn təlim** keçirilib.

Əhalini Agentliyin fəaliyyəti, icbari tibbi sığorta sistemi, onun üstünlükləri, Xidmətlər Zərfi ilə təminata alınmış tibbi xidmətlər barədə məlumatlandırmaq, ictimaiyyətdə Agentliyin fəaliyyəti haqqında müsbət fikir və rəy formalaşdırmaq məqsədilə hesabat dövründə departament tərəfindən 88 videoçarx və 9 həyat hekayəsi hazırlanaraq qurumun rəsmi internet səhifəsində, sosial şəbəkələrdəki səhifələrində və "YouTube" kanalında yerləşdirilib, heblə müxtəlif tədbirlərdə nümayuş edilib.

## 5.4 Agentliyin saytının və sosial şəbəkələrdəki səhifələrinin əsas fəaliyyət göstəriciləri

Saytın əsas fəaliyyət göstəriciləri aşağıdakı diaqramda təqdim olunur:




2021-ci ildə Agentliyin rəsmi internet səhifəsinin (www.its.gov.az) məzmunu da mütəmadi olaraq yenilənib, saytın təkmilləşdirilməsi və funksionallığının artırılması ilə bağlı bir sıra tədbirlər icra olunub:

- "E-xidmətlər" altbölməsində "Laboratoriya analizlərinin nəticələri" xidmətinin tətbiq edildiyi tibb müəssisələrinin sayı 8-dən 20-dək artırılıb.

- "COVID-19 vaksin randevu" və "COVID-19 PZR analizi nəticəsinin onlayn qaydada əldə edilməsi" adlı yeni elektron xidmətlər istifadəyə verilib.

- "Şəxsi kabinetə giriş" elektron xidmətinə "Peyvənd sertifikatı", "İmmunitet sertifikatı" və "Əks göstəriş sertifikatı"nın əldə edilməsinə imkan verən yeni funksiya əlavə olunub.
- Xidmətlər Zərfi üzrə elektron axtarış sistemi istifadəyə verilib.

- Fiziki imkanları məhdud şəxslərin saytdan rahat istifadə edə bilmələri üçün xüsusi funksiya əlavə olunub. Bu funksiya mətnlərin və kursorun ölçüsünü böyütməyə, saytın kontrastını tənzimləməyə, sətir və mətnlərarası boşluğu dəyişməyə imkan verir.

- Saytın alt panelində "Saytın xəritəsi" bölməsi istifadəyə verilib. Burada saytın bütün bölmələrinə keçidlər yer alıb.

Agentlik sosial şəbəkələrdə də aktiv fəaliyyət göstərmişdir. Belə ki, qurumun sosial şəbəkələrdəki səhifələrində ümumilikdə **4640 post** paylaşılmışdır. Həmçinin, Agentliyin "YouTube" kanalında 431 video yerləşdirilmişdir ki, bunlara Agentlik tərəfindən hazırlanmış 205 videoçarx və 9 həyat hekayəsi də daxildir.

Sosial şəbəkələr üzrə əsas fəaliyyət göstəriciləri isə aşağıdakı diaqramlarda təqdim olunur:






Bunda başqa qurumun sosial şəbəkələrdəki səhifələrinə daxil olmuş 26390 sayda vətəndaş sorğusu müvafiq qaydada cavablandırılıb:




## 6. Vətəndaş müraciətlərinə baxılması

2021-ci ildə Agentlik tərəfindən vətəndaşların müraciətlərinə qanunvericiliklə müəyyən edilmiş qaydada və müddətdə baxılması təmin edilmişdir.

İl ərzində Agentliyə 19895-i ərizə, 5442-i şikayət və 36-sı təklif xarakterli (ümumilikdə 25373) yazılı müraciət daxil olmuşdur. Müraciətlərə dair ətraflı məlumat aşağıdakı cədvəllərdə göstərilmişdir:

| Daxil olan müraciətlərin mövzuları | Say | Faizlə |
|---|---|---|
| Ümumi: | 25373 | |
| o cümlədən, | | |
| Müayinə və müalicə, cərrahiyyə əməliyyatı, dərman təminatı haqqında | 11937 | 47% |
| Etik davranış qaydalarının pozulması ilə əlaqədar | 508 | 2% |
| İş və əmək münasibətləri haqqında | 2490 | 9,8% |
| Əlillik məsələləri haqqında | 7289 | 28,7% |
| İTS-nin tətbiqi, sığorta haqları, sığortalı olmadığına dair arayışın verilməsi haqqında | 164 | 0,7% |
| Digər | 2985 | 11,8% |

| **İcra olunmuş müraciətlər üzrə baxılmanın vəziyyəti** | **Say** | **Faizlə** |
|---|---|---|
| Həll olunmuşdur | 4503 | 20% |
| Qismən təmin edilmişdir | 2053 | 8,9% |
| Rədd edilmişdir (əsassız sayılmışdır) | 21 | 0,1% |
| Müvafiq izahat verilmişdir | 13836 | 62% |
| Dövlət proqramında icrası nəzərdə tutulub | 6 | 0,03% |
| Baxılmaq üçün aidiyyəti təşkilatlara göndərilmişdir | 1383 | 6,1% |
| Baxılmamış saxlanılmışdır | 668 | 2,87% |

Qeyd edək ki, daxil olmuş müraciətlərdən 2903-u icradadır.

Agentliyin rəhbərliyi və vəzifəli şəxsləri tərəfindən qəbul edilən vətəndaşların sayı 5916 nəfər təşkil etmişdir. Qəbullarda vətəndaşlar tərəfindən qaldırılmış məsələlər əsasən tibbi sərfin qarşılanması, əlillik dərəcəsinin təyin edilməsi, işlə təmin olunma, müayinə, müalicə, cərrahi əməliyyatlar və dərman təminatı ilə əlaqədar olmuşdur.

Müraciət etmək imkanlarının artırılması məqsədilə Agentliyin rəsmi internet səhifəsində vətəndaşlar üçün xüsusi bölmə fəaliyyət göstərir. Bölmədə vətəndaşların qəbulu cədvəli, vətəndaşların müraciətlərinə dair qanunvericilik aktları yerləşdirilmiş, habelə onların elektron qaydada müraciət göndərmələri və aidiyyəti vəzifəli şəxsin qəbuluna yazılmaları təmin edilmişdir.

Qeyd edək ki, “Dövlət orqanlarında (qurumlarında) daxili idarəetmə proseslərinin elektronlaşdırılması tədbirləri haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 27 oktyabr tarixli 314 nömrəli Fərmanının 6-cı hissəsi ilə verilmiş tapşırığa uyğun olaraq 2021-ci ilin yanvar ayından Agentlik və TƏBİB-in sənəd dövriyyəsi, o cümlədən vətəndaşlardan daxil olan müraciətlər üzrə kargüzarlıq Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi tərəfindən təqdim olunmuş Elektron Sənəd Dövriyyəsi (ESD) vasitəsilə aparılmaqla elektronlaşdırılmışdır. Bu da vətəndaş müraciətlərinə baxılması işinin daha səmərəli, nəzarətin və hesabatlılığın daha effektiv təşkili ilə nəticələnmişdir. 2022-ci ilin yanvar ayından etibarən TƏBİB-in tabeliyindəki Bakı şəhəri və regionlarda yerləşən tibb müəssisələrində də (92 tibb müəssisəsi) ESD-nin tətbiqinə başlanılmışdır. Bununla yanaşı, vətəndaş müraciətlərinə baxılması, həmçinin sənədlərlə işin daha səmərəli təşkili məqsədilə TƏBİB-in tabeliyindəki tibb müəssisələrinin strukturunda Ümumi şöbələr yaradılmış, hazırda kadr potensialının gücləndirilməsi istiqamətində tədbirlər davam etdirilir.

## 7. Beynəlxalq əməkdaşlıq

İTS-nin tətbiqi sahəsində qabaqcıl beynəlxalq təcrübənin öyrənilməsi üçün Azərbaycan Respublikasının müxtəlif ölkələrdə fəaliyyət göstərən diplomatik missiyaları, AR-də akkreditə olunmuş səfirliklər, beynəlxalq qurumlar, yardım təşkilatları, beynəlxalq banklar və özəl təsisatlar ilə fəal əməkdaşlıq Agentliyin beynəlxalq əməkdaşlıq üzrə fəaliyyətinin əsas istiqamətini təşkil edir.

2021-ci il ərzində Agentliyin beynəlxalq əməkdaşlıq çərçivəsində gördüyü işlər:

### 7.1. Anlaşma Memorandumları:

- Türkiyə Respublikasının Sosial Müdafiə Qurumu (SGK) ilə Anlaşma Memorandumu və fəaliyyət istiqamətlərini müəyyən edən üç illik Fəaliyyət Planı imzalanmışdır;
- Türkiyə Respublikasının İstanbul şəhərində İstanbul Dövlət-Özəl Tərəfdaşlığı Kamillik Mərkəzi ilə əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanmışdır;
- Danimarkanın NovoNordisk əczaçılıq şirkəti ilə “Virtual Diabet Məktəbi” layihəsinin yaradılması haqqında Anlaşma Memorandum imzalanmışdır;
- Agentlik ilə BP Azərbaycan şirkəti arasında əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanmışdır.

### 7.2. Beynəlxalq layihələr və tədbirlər ilə əlaqədar fəaliyyət

1. ÜST-ün Yol Təhlükəsizliyi Fondunun maliyyə dəstəyi ilə “Azərbaycanda yol-nəqliyyat hadisələrində xəsarət alanlar üçün təcili tibbi yardım xidmətlərinin koordinasiyalı çatdırılmasına dair milli potensialın gücləndirilməsi” layihəsi. Layihənin məqsədi Təcili Tibbi Yardım sisteminin gücləndirilməsi, təlimlərin keçirilməsidir.

2. ÜST, UNICEF, Heydər Əliyev Fondu, USAID, UK Aid, RoAID təşkilatlarının dəstəyi ilə “PROACT-Qayğı" layihəsinin icrası davam etdirilir. Layihənin məqsədi koronavirus pandemiyası ilə əlaqədar Azərbaycan Respublikasında görülmüş tədbirləri genişləndirmək və digər əsas səhiyyə xidmətlərinin göstərilməsini təmin etmək üçün ilkin səhiyyə xidmətlərini gücləndirməkdir. Layihə çərçivəsində tibbi avadanlıqların ianəsi və texniki yardım nəzərdə tutulmuşdur.

3. ÜST və Birləşmiş Millətlər Təşkilatının dəstəyi ilə İctimaiyyətlə əlaqələr üzrə mütəxəssislərin bilik və bacarıqlarının artırılması istiqamətində təlim proqramı təşkil olunmuşdur.

4. BMT-nin Uşaq Fondu (bundan sonra - UNİCEF) tərəfindən Abşeron rayonu, Gəncə şəhəri, Şirvan şəhəri və Ağcabədi rayonunda “Hamilə qadınlar və 0-3 yaş arasında olan uşaqlarla bağlı evlərə ziyarət üzrə Universal Mütərəqqi Model” patronaj sistemi layihəsi. Layihənin məqsədi 0-3 yaş aralığında uşaqların sağlam inkişafı və xəstəliklərinin profilaktikası, yenidoğulmuşlarda fiziki və əqli qüsurların vaxtında aşkarlanması, sağlamlıq imkanları məhdud uşaqlı ailələrə dəstək göstərilməsidir.

5. UNİCEF tərəfindən ölkəmizə hamilə qadınların istifadəsi üçün nəzərdə tutulmuş dəmir və fol turşusu tərkibli 54 000 qutu həb ianə edilmişdir. İanə edilən dəmir və fol turşusu tərkibli preparatlar hamilə qadınlara təyin olunması üçün aidiyyəti tibb məntəqələrinə paylanılmışdır.

6. BMT-nin Əhali Fondunun (bundan sonra-UNFPA) dəstəyi ilə müharibədən zərər çəkmiş 8 şəhər/rayonda (Ağdam, Bərdə, Tər-tər, Goranboy, Göy-göl, Ağcabədi, Gəncə, Mingəçevir) əhaliyə cinsi və reproduktiv sağlamlıq və gender əsaslı şiddətlə mübarizəyə dair mobil xidmətlərin göstərilməsi ilə bağlı yardım layihəsi həyata keçirilmişdir. Layihə çərçivəsində təlimlər təşkil olunmuş və tibbi ləvazimatlar ianə edilmişdir.

7. UNFPA “Humanitar sahələrdə Reproduktiv Sağlamlıq üzrə Minimal İlkin Xidmətlər Paketinin (MİXP) əlaqələndirilməsi və həyata keçirilməsi üçün milli potensialın artırılması” layihəsi. Layihəyə çərçivəsində Göygöl RMX və Mingəçevir ŞMX-da simulyasiya təlimləri keçirilmişdir.

8. Dünya Bankı ilə Yaponiyanın “İqtisadi və Sosial İnkişaf Proqramı”nın dəstəyi ilə “Elektron Səhiyyə və Tibbi İddiaların İdarə edilməsi Sisteminin İnkişafı üzrə texniki yardım layihəsi. Layihənin məqsədi Tibbi İddiaların İdarə edilməsi ilə əlaqədar sistemin inkişafı ilə bağlı tövsiyələrin verilməsi və 2022-2026-cı illər üzrə Azərbaycanın Milli Səhiyyə İnformasiya Strategiyasının hazırlanması və tövsiyələrin verilməsidir. Layihə Səhiyyə Nazirliyi və İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi ilə birgə həyata keçirilir.

9. İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi ilə Türk Əməkdaşlıq və Koordinasiya Agentliyi (TİKA) arasındakı əməkdaşlığın nəticəsi olaraq, işğaldan azad olunmuş ərazilərdə quraşdırılacaq modul tipli xəstəxanaların tibbi avadanlıqlarla təchizatı TİKA tərəfindən təmin olunması istiqamətində danışıqlar aparılmışdır.

10. Koreya Respublikasının Milli Tibbi Sığorta Xidməti (National Health Insurance Service, NHIS) tərəfindən təşkil edilmiş “Səhiyyə sahəsində beynəlxalq layihə inkişafı” mövzusunda onlayn konfransda TƏBİB-in qeyri-infeksion xəstəliklərin təhlili və idarəedilməsi şöbəsi tərəfindən ölkəmizdəki cari vəziyyət barədə təqdimat edilmişdir.

11. Yaponiya Hökumətinin “İqtisadi və Sosial İnkişaf Proqramı” çərçivəsində tibbi avadanlıqların təchiz edilməsi üzrə Qrant layihəsi. Layihə çərçivəsində tibbi avadanlıqların alınması həyata keçirilməkdədir.

## 7.3. İşgüzar səfərlər:

1. Türkiyə Respublikasının Ankara şəhərinə işgüzar səfər çərçivəsində, Türkiyə Respublikasının səhiyyə nazirinin müavini Dr.Tolga Tolunay, Türk Əməkdaşlıq və Koordinasiya Agentliyinin sədri Serkan Kayalar və Ankara Universitetinin rektoru Prof.Dr. Necdet Ünüvar ilə görüşlər keçirilmişdir.

2. İstanbul Dövlət-Özəl Sektor Tərəfdaşlığı (DÖST) üzrə Kamillik Mərkəzinin dəvəti ilə Agentliyin nümayəndələri İstanbula səfər etmişdir. Səfər çərçivəsində Agentliyin nümayəndələri səhiyyə sektorunda DÖST layihələrinin həyata keçirilməsi təcrübəsi ilə tanış olmuş, işgüzar görüşlər keçirilmişdir.

3. İstanbul Dövlət-Özəl Sektor Tərəfdaşlığı (DÖST) üzrə Kamillik Mərkəzinin dəvəti ilə Agentliyin nümayəndəsi “6-cı İstanbul dövlət özəl tərəfdaşlığı həftəsi” çərçivəsində İstanbulda DÖST qanunvericiliyi üzrə təlimlərdə iştirak etmişdir.

4. Çexiya Respublikası Xarici İşlər Nazirliyi və Şərq Tərəfdaşlığının Estoniya Mərkəzi tərəfindən birgə təşkil edilmiş regional sağlamlıq infrastrukturunda kibertəhlükəsizlik seminarında Agentlik tərəfindən iki mütəxəssis iştirak etmişdir.

5. Türkiyə Respublikasının Antalya şəhərində təşkil edilən HIMSS Avrasiya Konfrans və Yarmarkasında Agentliyin iki əməkdaşı iştirak etmişdir.

Agentlik və tabeliyində olan müəssisələrin əməkdaşları üçün 100-dən çox müxtəlif mövzularda beynəlxalq təlim proqramları keçirilmiş, eyni zamanda, Agentlik tərəfindən beynəlxalq əməkdaşlıq əlaqələrinin genişləndirilməsi, bu əməkdaşlıq çərçivəsində müvafiq sahələr üzrə qabaqcıl dünya praktikasının öyrənilməsi, təcrübə və məlumat mübadilələrinin aparılması istiqamətində işlər davam etdirilir.

## 8. İnsan resursları üzrə görülmüş işlər

TƏBİB-in tabeliyinə verilmiş tibb müəssisələrinin əməkdaşlarına zəruri təlimlərin keçirilməsi 2021-ci ildə davam etdirilmişdir:

- Agentlik tərəfindən yaradılmış Proqram təminatının "İnsan kapitalı" modulu və Azərbaycan Respublikasının Əmək qanunvericiliyinin "İnsan kapitalı" modulu ilə bağlı hissələri haqqında oktyabr-dekabr aylarında 93 tibb müəssisəsinin 274 əməkdaşına 468 saat nəzəri və praktiki təlimlər keçirilmiş və bu tibb müəssisələrinin struktur və ştat cədvəlləri "İnsan kapitalı" modulunda qurulmuşdur. Həmin tibb müəssisələrindən elektron hesabatlılığın əldə edilməsi təmin edilmişdir.

- TƏBİB-in tabeliyinə verilmiş 12 tibb müəssisəsində İnsan resursları şöbəsinin fəaliyyəti yoxlanılmış və Azərbaycan Respublikası qanunvericiliyinin tələblərinə uyğun olaraq tədbirlər görülmüşdür.

- 2021-ci ilin iyul və sentyabr Agentlik, TƏBİB və onun tabeliyindəki tibb müəssisələrinin əməkdaşları üçün "Korrupsiya hüquqpozmaları və onlara qarşı mübarizə", "Etik davranış qaydaları" mövzusunda təlim keçirilib. Təlimdə Agentlik, TƏBİB, Akademik M.Ə.Mirqasımov adına Respublika Klinik Xəstəxanası, Kliniki Tibbi Mərkəz və 3 nömrəli Şəhər Klinik Xəstəxanasından ümumilikdə 111 nəfər iştirak edib. Təlimdə "Etik davranış qaydaları" və "Korrupsiya ilə əlaqədar hüquqpozmalar və bu hüquqpozmalara görə məsuliyyət" mövzularında təqdimatlar nümayiş olunub.

- 2021-ci ilin oktyabr ayında Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) tərəfindən Göygöl rayonunda Agentlik, TƏBİB və Dağlıq Qarabağ, habelə ona yaxın bölgələrdə yerləşən rayon mərkəzi xəstəxanalarının əməkdaşları üçün ümumi maarifləndirmə təlimi keçirilib. Əməyin mühafizəsi və mülki müdafiə üzrə vəzifələrdə çalışan məsul işçilər üçün təşkil edilən təlim mina və partlayıcı sursatlar haqqında mövzuları əhatə edib. Agentlik, TƏBİB, həmçinin Xocalı, Laçın, Kəlbəcər, Ağdam, Füzuli, Bərdə, Beyləqan və Yevlax rayon mərkəzi xəstəxanalarından ümumilikdə 15 əməkdaşın cəlb olunduğu treninq ANAMA-ya məxsus Göygöl Regional Təlim Mərkəzində təşkil olunub.

- Təlimin keçirilməsində məqsəd Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə, eyni zamanda müharibə və hərbi əməliyyatların təsirinə məruz qalmış digər bölgələrə xidməti zərurətlə əlaqədar səfər edəcək şəxslərin mina və partlayıcı sursatların törədə biləcəyi təhlükələrə dair maarifləndirilməsini təmin etməkdir. Qeyd

olunmalıdır ki, bundan başqa təlimin əsas istiqamətlərindən biri də hazırkı iştirakçıları çalışdıqları qurumun qeyd olunan ərazilərə ezam olunacaq əməkdaşlarına eyni məzmunlu təlimi keçə bilmələri üçün hazırlamaqdır.

- Ölkə üzrə İTS-nin tətbiqi ilə bağlı aparılan optimallaşdırma işləri çərçivəsində Bakı və Sumqayıt şəhərləri üzrə 38 tibb müəssisəsi əsasında 15 tibb müəssisəsi yaradılmış, 42 tibb müəssisəsinin strukturunda təkmilləşdirmə aparılmış, hazırda “Bakı Baş Səhiyyə Mərkəzi”ndə tabeliyində olan 103 tibb müəssisəsində müvafiq istiqamətdə işlər görülməkdədir. Ümumilikdə 2021-ci il üzrə 56 tibb müəssisəsinin yeni ştat cədvəli təsdiq edilmişdir.

## 9. Əlillik məsələləri və regionlarla iş sahəsində görülmüş işlər

### 9.1. Əlillik məsələləri

Agentliyin İdarə Heyətinin 02 İyul 2021-ci il tarixli 15 nömrəli qərarı ilə TƏBİB-in tabeliyindəki tibb müəssisələrində Həkim Məsləhət Komissiyası haqqında Əsasnamə”si təsdiq edilmişdir.

Şəxsə göndəriş maddi-texniki bazası, kadr potensialı, ixtisaslaşması, əhaliyə xidmətin əlçatanlığı nəzərə alınmaqla, islahatların ardıcıllığının təmin edilməsi, idarəetmənin optimallaşdırılması və şəffaflığın artırılması məqsədilə Azərbaycan Respublikası Səhiyyə Nazirliyi, Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Agentlik tərəfindən birgə hazırlanmış həkim-məsləhət komissiyalarının siyahısının ilkin versiyası 26.04.2021-ci il tarixli 1686 nömrəli dərkənarla, ikinci versiyası 19.08.2021-ci il tarixli 24291 nömrəli dərkənarla razılaşdırılmışdır. Təsdiq edilmiş Əsasnamə əsas tutularaq, Agentliyin nəzdində yaradılmış Komissiya tərəfindən 2021-ci ilin fevral-noyabr ayları ərzində 13 tibb müəssisəsinin Həkim Məsləhət Komissiyalarının fəaliyyəti ilə bağlı yoxlamalar aparılmışdır. Həmçinin, Agentliyin Əlillik məsələləri üzrə nəzarət şöbəsinin əməkdaşları Vətən müharibəsi qazilərinin əyani müayinəsi məqsədilə təşkil edilmiş Komissiyalarda mütəmadi olaraq iştirak etmişdir.

Əlillik məsələləri üzrə nəzarət şöbəsinin əməkdaşları tərəfindən tibb müəssisələrinin rəhbər heyəti və operatorlarına mütəmadi olaraq Həkim Məsləhət Komissiyalarının işinin təşkili, TQS №088-in düzgün rəsmiləşdirilməsi ilə bağlı maarifləndirici təlim keçirilmişdir.

Əlillik məsələləri üzrə nəzarət şöbəsinin əməkdaşları 13-16 aprel ÜST tərəfindən “Funksionallıq, Əlillik və Sağlamlıqla bağlı Beynəlxalq Təsnifat”-a (International Classification of Functioning, Disability and Health (ICF)) və 12 oktyabr 2021-ci il tarixində

keçirilmiş “Provisional Programme: WHO Regional consultation” onlayn təlimlərində iştirak etmişdir.

Vətəndaşların tibbi sənədlərinin toplanıb, Həkim Məsləhət Komissiyasında sağlamlıq vəziyyətinin dəyərləndirilməsinin düzgün şəkildə həyata keçirilməsi gündəlik nəzarətdə saxlanılmışdır. Əlillik müavinətinin təyini və bərpası istiqamətində vətəndaşların Agentliyə olan əyani müraciətləri davamlı olaraq araşdırılmış və müvafiq əldə edilən nəticə barədə vətəndaşlar məlumatlandırılmışdır. Həmçinin, əlillik məsələləri ilə bağlı müxtəlif qurumlardan daxil olmuş müraciətlər müvafiq qaydada araşdırılmış və cavablandırılmışdır.

### 9.2. Regionlarla iş

Cari il ərzində mütəmadi olaraq bütün regionlara səfərlər edilmiş, xəstəxana rəhbərləri və baş həkimlərlə informativ məqsədlə görüşlər keçirilmişdir. Agentliyin strukturuna daxil olan 11 filialdan 3-nün (Cəlilabad, Göyçay və Şəmkir filiallarının) açılışı məhz 2021-ci ilə təsadüf edir. Regionlarda Heydər Əliyev Fondu, ÜST, UNICEF, USAID, UK Aid, RoAID təşkilatlarının dəstəyi ilə “PROACT-Qayğı" və digər layihələrin həyata keçirilməsində Agentliyin filialları dəstək göstərmişdir.

Bölgələrdən 2021-ci il ərzində Regional mərkəzlərlə iş şöbəsinə daxil olmuş 700-dən çox vətəndaş müraciəti araşdırılmış və cavablandırılmışdır.

## 10. İnformasiya texnologiyaları və qeydiyyat sistemi üzrə görülmüş işlər

İTS-nin ölkə ərazisində tətbiqi və Xidmətlər Zərfində mövcud olan bəzi tibbi xidmətlərin dövlət xəstəxanalarında icrasının mümkün olmadığı halında vətəndaşların tibbi xidmətləri almaları üçün özəl tibb müəssisələrinə elektron göndəriş imkanı yaradan Göndərişlər alt modulu hazırlanmışdır. Bu modul üzrə 40 tibb müəssisəsi sistemə qoşulmuş və say mütəmadi olaraq artmaqda davam edir.

Xəstəxanaların tibbi təchizatının yaxşılaşdırılması və sifarişlərin elektronlaşdılması məqsədi ilə mərkəzi anbar modulunun qurulması və tibb müəssisələrində tətbiqi həyata keçirilmişdir.

Tibb müəssisələrinə qan tədarükü, qan ehtiyatlarının toplanması və donor siyahılarının elektron şəkildə saxlanması məqsədi ilə Qan Bankı modulunun yaradılması uğurla həyata keçirilmiş və hazırda tətbiq mərhələsindədir.

Əlilliyin qiymətləndirilməsi üzrə yeni proqram təminatı hazırlanmış Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə inteqrasiyası tamamlanmışdır. Hazırda modulun işlərə start verilməsi üçün qanunvericilik aktlarının yeni modula uyğunlaşdırlması üçün müraciət ünvanlanmışdır.

2021-ci il ərzində Agentlik tərəfindən ümumi anbar yaradılıb və anbar modulu proqram təminatı 170 tibb müəssisəsində tətbiq olunmuşdur. Həmin modul vasitəsi ilə tibb müəssisəsi tərəfindən dərmanlar və avadanlıqlar üzrə tələblərini yerləşdirməyə imkan verilmişdir.

ASAN Xidmət tərəfindən təqdim olunmuş Elektron Sənəd Dövriyyəsi proqram təminatı Agentlikdə, TƏBİB və TƏBİB-in tabeliyində olan 150 tibb müəssəsində tətbiq olunmuşdur.

Bakı və Sumqayıt şəhərləri üzrə tibb müəssisələrin elektronlaşdırılması ilə bağlı əlavə İT avadanlıqlar təhvil verilib quraşdırılmış, daxili kabelləşmə və optik internet çəkilməsi kimi işlər görülmüş və həmin işlər hazırda davam etməkdədir.

2021-ci il ərzində Bakı və Sumqayıt şəhərləri üzrə ümumi olaraq 193 tibb müəssisəsində elektronlaşma işləri aparılmışdır.

Ümumi olaraq 2140 ədəd personal kompüter, 2160 ədəd UPS, 160 ədəd şəbəkə avadanlığı (firewall, switch, router) və 960 ədəd periferiya qurğuları (printer, scaner, reader) təhvil verilib quraşdırılmışdır.

45 tibb müəssisəndə ümumi olaraq 1118 işçi yeri üçün daxili kabelləşmə və 13 tibb müəssəsində daxili optik xətlərin çəkilməsi işləri həyata keçirilmişdir.

55 tibb müəssisəsi və Data mərkəzlər arasında təhlükəsiz VPN şəbəkəsi yaradılmışdır.

Bütün sadalanan elektron servislərin dayanıqlı və stabil işləməsi üçün Azintelecom Data Mərkəzində ayrılmış resursların üzərinə keçid olunması həyata keçirilmişdir, data mərkəzlərin arasında XDXM xətlərin vasitəsi ilə təhlükəsiz VPN şəbəkəsi yaradılmış və bu şəbəkənin üzərindən data mərkəzlərin arasında replikasiya qurulmuşdur.

## 11. Koronavirus pandemiyası ilə mübarizə

### 11.1. Tibbi statistik göstəricilər

Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargahın 2021-ci il 31 dekabr tarixində açıqladığı məlumata əsasən ölkə üzrə koronavirusa yoluxanların ümumi sayı 616947, sağalanların ümumi sayı 599546, ümumi test sayı isə 5863885 təşkil etmişdir.

Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 18 mart tarixli 1947 nömrəli Sərəncamına və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 25 mart tarixli 112 nömrəli Qərarına əsasən Agentlik tərəfindən 2021-ci ilin yanvar-dekabr ayları üzrə tibb və qeyri-tibb işçilərinə, habelə könüllülərə ümumilikdə 118 milyon 420 min manat məbləğində müddətli əlavələr və mükafatlar ödənilmişdir:

- dövlət tibb müəssisələrində çalışan tibb və qeyri-tibb işçilərinə iş vaxtına mütənasib olaraq yanvar-dekabr ayları üzrə ümumilikdə 118 milyon 302 min

manat məbləğində müddətli əlavə;

- özəl tibb müəssisələrində çalışan tibb işçilərinə iş vaxtına mütənasib olaraq yanvar-dekabr ayları üzrə ümumilikdə 57 min 674 manat məbləğində müddətli əlavə;
- könüllülərə yanvar-dekabr ayları üzrə ümumilikdə 59 min 941 manat məbləğində mükafat.

## 11.2. Vaksinasiya işinin təşkili

Tibb müəssisələrində yaradılmış peyvənd məntəqələrində peyvəndləmə prosesinin statistikasının aparılmasında rast gəlinən nöqsanların aradan qaldırılmasına kömək məqsədilə tibbi qərargahda işçi qrup yaradılmış və məntəqələrin qeydiyyat və hesabat işinin təkmilləşdirilməsi aparılmışdır.

İşçi qrupu tərəfindən peyvənd flakonlarının miqdarına dair gündəlik aktlarının sistemə yüklənməsinə, vətəndaşların analiz.its.gov.az sistemində qeydiyyata alınmasına nəzarət edilmişdir.

## 11.3. Texniki dəstək

2021-ci il ərzində Agentliyin "1542" Çağrı mərkəzinə ümumilikdə 179 515 müraciət daxil olub. Daxil olan müraciətlərin 87 717-si koronavirus pandemiyası, 51 155-i icbari tibbi sığorta, 29 779-u digər məsələlər, 8684-ü əlillik məsələləri və 2180-i psixoloji dəstəklə bağlı olub. Koronavirus pandemiyası ilə əlaqədar xəttə daxil olan müraciətlərin sayı aşağıdakı kimi olub:

- Koronovirus xəstəliyinin gedişatı haqqında məlumatla bağlı - 17 208 müraciət;
- Vaksinasiya ilə bağlı - 26 609 müraciət;
- COVID-19 testinin nəticəsi ilə bağlı - 43 900 müraciət.

İTS təminatı ilə bağlı xəttə daxil olan müraciətlərin əksəriyyəti müayinə və müalicə (22 094) və dərman təminatı (7439) barədə olub.

Qeyd etmək lazımdır ki, 2021-ci ilin noyabr ayında Çağrı mərkəzinin xətləri yenilənib. Hazırda Çağrı mərkəzi 4 yönəldici xətt üzrə xidmət göstərir: icbari tibbi sığorta xətti (1542-1), əlillik məsələləri ilə bağlı xətt (1542-2), koronavirusla bağlı xətt (1542-3), sözügedən xəttin koronovirus xəstəliyinin gedişatı haqqında məlumat əldə edilməsi ilə bağlı alt xətti (1542-3-1), vaksinasiya ilə bağlı alt xətti (1542-3-2), COVID-19 testinin

nəticəsi ilə bağlı alt xətti (1542-3-3) həftə içi 5 gün 09:00-dan 18:00-dək, operator ilə əlaqə (1542-0) xətti isə 7/24 saat fəaliyyət göstərirlər.

### 11.4. İnformasiya texnologiyaları üzrə tədbirlər

Koronavirus pandemiyasının ölkə ərazisində yayılmasının qarşısını almaq məqsədilə qısa müddət ərzində vaksinasiya üçün qeydiyyat proqramı yaradılmışdır. Vaksinasiyadan keçən vətəndaşların rahatlığının təmin edilməsi məqsədi ilə vaksin məntəqələrinə randevu sistemi tətbiq edilmişdir. Vaksinasiya prosesinə cəlb olunmuş vətəndaşların randevu alaraq yaxınlaşa biləcəyi tibb müəssisələrinin sayı 268 məntəqəyə çatdırılmışdır. Əlavə olaraq Nazirlər Kabinetinin tapşırığına əsasən vaksinasiyadan keçmiş həmçinin analiz nəticəsi pozitiv olan vətəndaşlar üçün COVID-19 vaksin (immunitet) sertifikatları onlayn qaydada tərtib edilmiş və digər yoxlanış tədbirlərini həyata keçirən qurumlar üçün EGOV portalı ilə inteqrasiyası təmin edilmişdir.

Azərbaycan Respublikası vətəndaşlarının Rusiya Federasiyasına maneəsiz səfərləri üçün federasiyanın tələbləri əsasında "Путешествую без Covid-19" mobil tətbiqetməsi ilə inteqrasiya təmin edilmişdir.

### 11.5. Maarifləndirmə üzrə tədbirlər

Agentliyin rəsmi internet səhifəsində 3 altbölmədən ibarət “Koronavirus” bölməsi fəaliyyət göstərir. “Koronavirus” bölməsinin “Ölkədə ümumi vəziyyət” altbölməsinə “Vaksinasiya” haqqında məlumat daxil edilib, rus və ingilis dillərinə tərcümə edilərək saytın müvafiq altbölməsində yerləşdirilib. “COVID-19 vaksin randevu” elektron xidmətinə vaksinasiya barədə tez-tez verilən suallar yerləşdirilib.

Saytın müvafiq altbölmələrində Nazirlər Kabinetinin 20 qərarı və Nazirlər Kabineti yanında Operativ Qərargahın 365 məlumatı yerləşdirilib.

Saytın “Elanlar” altbölməsində koronavirusla bağlı 11 elan yerləşdirilib.

Koronavirusla mübarizə ilə bağlı 36 press-reliz, 5 xəbər, 2 açıqlama hazırlanıb, 217 sorğu cavablandırılıb, 53 sorğu isə aidiyyəti qurumlara yönləndirilib. COVID-19 xəstəliyinin əlamətləri, maskadan düzgün istifadə qaydası, vaksinasiya tədbirləri, "İmmunitet sertifikatı", "Vaksin sertifikatı" və "Əks göstəriş sertifikatı"nın əldə olunması və digər mövzularda 99 məlumatlandırıcı post və 12 videoçarx, habelə tibb işçilərinə müddətli əlavələrin verilməsi ilə bağlı 5 post hazırlanıb.

Agentliyin sosial şəbəkələrdəki səhifələrində digər qurumlara istinad edilərək 379 məlumatlandırıcı post paylaşılıb, "YouTube" kanalında isə 85 televiziya xəbəri və videoçarxlar yerləşdirilib.

## 11.6. Beynəlxalq əməkdaşlıq

Koronavirus pandemiyası ilə mübarizə məqsədilə Agentlik beynəlxalq əməkdaşlıq çərçivəsində aşağıdakı layihələri icra etmişdir:

- Ümumdünya Səhiyyə Təşkilatının (bundan sonra- ÜST) "Fövqəladə Hallara Cavab Məlumat İdarəetmə Sistemi (ERIMS)" layihəsi. Layihənin məqsədi baş verə biləcək xüsusi hallarda Fövqəladə Hallara Cavab Məlumat İdarəetmə Sisteminin təkmilləşdirilməsi və COVID-19 üçün mövcud sistemlərə məlumat axını sxeminin tərtib edilməsini planlaşdırmaqdır.

- ÜST-ün "COVİD-19 əleyhinə vaksinasiyaya dəstək" layihəsi. Layihənin məqsədi üç il ərzində COVİD-19 və ölkə üzrə rutin immunizasiya proqramlarına dəstək olmaqdır. Layihə çərçivəsində "Prioritet qruplar arasında COVİD-19 vaksinasiyasının tətbiqi ilə bağlı maneələr və təşviqedici amillərin müəyyən edilməsi ilə bağlı keyfiyyət tədqiqatı" keçirilmişdir. Həmçinin, layihə çərçivəsində tibbi avadanlıqların ianə olunması və texniki yardım nəzərdə tutulmuşdur.

- Asiya İnkişaf Bankının (AİB) Koronavirus infeksiyasının qarşısının alınması və digər yoluxucu xəstəliklərin potensial ocaqlarının aradan qaldırılması üçün regional dəstək layihəsi. Layihənin məqsədi peyvəndin çatdırılma qabiliyyətini və immunizasiya proqramının hazırlığın qiymətləndirilməsidir.

- Asiya İnkişaf Bankı (AİB) "Sığorta sisteminin qiymələndirilməsi" texniki yardım layihəsi. Layihənin məqsədi "COVID-19-a Aktiv Müdaxilə və Xərclərə Dəstək Proqramı"-nın icrasının vaxtında və effektiv monitorinqini dəstəkləməklə yanaşı, hökumətin borc idarəetmə sistemlərinin təkmilləşdirməsi və sosial təminat sisteminin gücləndirilməsində dəstəyin göstərilməsidir.